LAYİHƏLƏR VƏ TƏRƏFDAŞLIQ

Birgə iş: SSİ layihəsi üzrə daxili təmir və tamamlanma işləri

ORA GROUP ilə əməkdaşlıq çərçivəsində ofis, laboratoriya və sənaye mətbəxi sahələrinin qurulması









SSİ layihəsi çərçivəsində tamamlanmış ofis, laboratoriya və sənaye mətbəxi sahələri

ORA GROUP ilə birgə əməkdaşlıq çərçivəsində **SSİ layihəsi** üzrə icra edilən daxili təmir işləri ofis, laboratoriya və sənaye mətbəxi sahələrinin müasir texniki və gigiyenik standartlara uyğun qurulmasını əhatə edir. Divarların keramik üzlənməsi, alüminium-şüşə arakəsmələrin, modul asma tavan və LED işıqlandırma sistemlərinin quraşdırılması, eləcə də havalandırma və təhlükəsizlik elementlərinin vahid memarlıq-mühəndis həllində birləşdirilməsi məkanların funksional və estetik görünüşünü təmin edir. Birgə icra və dəqiq koordinasiya layihənin hər mərhələsində yüksək keyfiyyət göstəricilərini ön planda saxlayır.